UDC 330.190.2/479.24

# GƏNCƏ-QAZAX İQTİSADİ RAYONUNDA AQRAR SAHİBKARLIĞIN İNKİŞAFININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**S.T.ƏHMƏDOV**
**AKTN Aqrar Tədqiqatlar Mərkəzi**

*Məqalədə Gəncə-Qazax iqtisadi rayonunun kənd təsərrüfatı istehsalçılarının xarak-terik cəhətləri tədqiq edilir, sahəvi xüsusiyyətləri öyrənilir, istehsal həcminə görə təsnifləşdirmənin mövcud torpaq ehtiyatları əsasında aparılmasına səy göstərilir və məqsədəuyğun təkliflər irəli sürülür. Burada həm də aqrar sahənin sahibkarlıq subyektlərinin intensiv əkinçilik üsullarından istifadə vəziyyətinə diqqət yönəldilir.Regionun aqrar sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların həm yerli,həmdə xarici bazarlara təklif imkanları nəzərdən keçirilir.Aqrar sektorun kiçik və orta sahibkarlıq subyeklərinin daha yaxşı inkişafı məqsədlərinə nail olma yolları araşdırılır.*

***Açar sözlər**: torpaq ehtiyatları, məhsuldarlıq, kənd təsərrüfatına yararlı torpaq sahələri, kəndli sahibkar, intensiv əkinçilik.*

Tədqiqat nəticəsində məlum olmuşdur ki, ölkə əhalisi və iqtisadiyyat sahələrinin kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsində əsas istehsal vasitəsi sayılan yararlı torpaq ehtiyatlarının 16,6%-i Gəncə-Qazax iqtisadi rayonun ərazisindədir. Bu regionun kənd təsərrüfatına yararlı torpaq sahələrinin hər 100 hektarı təxminən 157 nəfərin ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın ödənilməsinə xidmət göstərir.

Mövcud olan torpaq ehtiyatlarından səmərəli istifadə edilməsində onun keyfiyyət əlamətləri-nin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Təhlil əsasında demək olur ki, ümumiyyətlə, ölkə üzrə mövcud olan torpaq ehtiyatlarında biçənək və otlaq sahələri üstünlük təşkil etdiyi kimi (58,9%-lə), tədqiq olunan bölgədə bu göstərici daha yüksək mahiyyət kəsb edir: Gəncə-Qazax iqtisadi rayonun-da 74,2% yararlı torpaq sahələri biçənək və otlaqlardan ibarətdir. Deməli, regionda heyvandarlığın inkişaf etdirilməsi imkanları daha genişdir. Bu iqtisadi rayonunun kənd təsərrüfatına yararlı torpaq sahələrinin 25,1%-ni əkinə yararlı sahələr təşkil edir və onun 77,9%-i suvarılan sahələrdən ibarətdir. Verilmiş məlumatlar bölgənin kənd təsərrüfatında əkinçiliyin inkişaf xüsusiyyətlərini müəyyən-ləşdirməyə əsas yaradır. İqtisadi rayonun təsərrüfatlarında, ölkə üzrə orta səviyyə ilə müqayisədə, əkinə yararlı sahələr məhduddur və suvarma əkinçiliyi geniş yayılmışdır.

Ölkə üzrə fəaliyyət göstərən kənd təsərrüfatı istehsalçılarının 16,6%-i Gəncə-Qazax iqtisadi rayonunda yerləşir. Onların hər biri, orta hesabla, 7 nəfər yerli əhalinin tələbatının ödənilməsi funksiyasına malikdirlər, 2,6 nəfər potensial əmək ehtiyatı mövcuddur, 4,4 ha yararlı torpaq sahəsindən və 1,1 ha əkin sahəsindən istifadə etməklə, kiçik sahibkarlıq subyektləri hesab edilirlər. Bu təsərrüfatların 84%-ə qədəri ailə kəndli təsərrüfatlarından ibarət olmaqla, əsasən əmtəəlik məhsul istehsalı ilə məşğul olurlar. Özlərinin tələbatının ödənilməsi ilə yanaşı, regionun daxili istehlak bazarının, o cümlədən, Gəncə və Naftalan şəhərlərinin əhalisinin tələbatının ödənilməsində fəali iştirakçı olmaq, vaxtı-vaxtında keyfiyyətli məhsullar təklif etmək, habelə ətraf bölgələrin, Bakı şəhərinin istehlak bazarlarına müəyyən növ məhsulların etibarlı təklifini təmin edə bilmək imkanları genişdir. Bu region həm də ölkənin ixrac potensialını genişləndirmək, qonşu respublikalarla idxal-ixrac əlaqələrinin səmərəli təşkili imkanlarına malikdir.

Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatlarında meyvəçilik həm növ baxımından və həm də həcmcə geniş yayılmışdır. Ölkənin meyvə bağlarının 11%-ə qədəri bu bölgənin payına düşür. O cümlədən, gavalı bağlarının 33%-i, xurma bağlarının 30,0%-i, armud bağlarının 28,4%-i, üzüm bağlarının 25,6%-i, ərik bağlarının 21,4%-i, alça bağlarının 18%-i, gilas, albalı, şaftalı, qoz bağlarının 10-15%-i bu bölgənin təsərrüfatlarında becərilir. Həmin meyvələr və habelə alma, heyva və s. növ meyvə ağaclarından xeyli əmtəəlik məhsul istehsal edilərək, yerli istehlak bazarına, Bakı və Sumqayıt şəhərlərinin,qonşu Rusiya Federasiyası və Gürcüstan Respublikasının istehlak bazarlarına çıxarmaq imkanları mövcuddur.

Statistik məlumatların təhlilindən görünür ki, ölkə üzrə mövcud olan fiziki və hüquqi şəxslərin 13,1 %-i Gəncə-Qazax iqtisadi rayonun ərazisində fəaliyyət göstərir. Onlrın hər 100 vahidi 1219 nəfər əhaliyə xidmətlər göstərir və bu göstəriciyə görə ölkə üzrə orta göstəricidən 1,5% dərəcəsi üzrə geridə qalır. Bir subyekt üzrə istehsal olunan məhsulların və göstərilən xidmətlərin həcminə görə isə, respublika üzrə orta göstəricidən, demək olar ki, üç dəfə geridədir. Gəncə-Qazax iqtisadi rayonunda sənayenin inkişaf səviyyəsi, ölkə ilə müqaisədə, 2,5 dəfədən çox geridə qalır. Bu regionda yalnız kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi və pərakəndə ticarətin payı üstünlük təşkil edir. Kənd təsərrüfatında isteh-

sal olunan məhsulların xüsusi çəkisi 28,9%-lə, ölkə üzrə orta göstəricidən 3,5 dəfə yüksəkdir, pərakəndə ticarətin xüsusu çəkisi isə ən yüksək səviyyədə olmaqla (57,0%), ölkə ilə müqayisədə xeyli (24,5%) üstünlüyə malikdir. Regionda, digər fəaliyyət sahələrinin xüsusi çəkisi 0,8% olmaqla, ölkə üzrə orta səviyyədən (0,9%-dən) nisbətən aşağıdır [1].

Rəsmi statistik məlumatların təhlilinə əsasən demək olur ki, Azərbaycanda 2017-ci ilin nəticələrinə görə, istehsal olunan kənd təsərrüfatı məhsullarının 45,8%-ni bitkiçilik məhsulları və 54,2%-ni heyvandarlıq məhsulları təşkil etmişdirsə, Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatlarında, əksinə, bitkiçilik məhsullarının istehsalı üstünlük təşkil etmişdir (57,0% çəkilə), heyvandarlıq məhsullarının payı isə 43% olmuşdur. Tədqiq edilən regionun təsərrüfatları sərəncamında olan kənd təsərrüfatına yararlı torpaqların hər hektarı hesabı ilə 2680 manat məhsul istehsal etməklə, torpaqdan istifadə edilmə səmərəliliyi, ölkə üzrə müqayisədə, 8,9% yüksək olmuşdur [2].

Tədqiqat nəticəsində məlum olmuşdur ki, rəsmi qurumlarda sahibkarların sayına dair bildirilən məlumatlar reallıqla uyğun gəlmir. Belə ki, Azərbaycan üzrə bütövlükdə təkcə kənd təsərrüfatı məhsullarının istehsalı ilə 1 352 121 təsərrüfat məşğul olur, Gəncə-Qazax iqtisadi rayonunda isə onların sayı 223 916 vahidlə səciyyələndirilir. Bu məlumatlar da rəsmi orqanlarda [2] uçota alınan ümumi sahibkarlıq subyektlərindən xeyli çoxdur: müvafiq olaraq, 71 faiz və 216 faiz yüksəkdir. Bunu da sahibkarlığa yanaşmanın qeyri-mükəmməlliyi ilə əlaqələndirmək olar.

Gəncə-Qazax iqtisadi rayonunun inzibati rayonları üzrə sahibkarlığın və o cümlədən, kəndli sahibkarlığın inkişaf xüsusiyyətləri barədə ümumi təəssürat yaradır: sahibkarlığın sənaye sahəsinin daha geniş inkişaf etdiyi ərazilərə Gəncə və Naftalan şəhərləri, Göygöl və Qazax rayonlarını aid etmək olar. Tovuz, Şəmkir, Samux rayonlarında kənd təsərrüfatı sahibkarlığı daha geniş yayılmışdır. Naftalan, Goranboy, Daşkəsən, Ağstafa və Gəncədə əsasən pərakəndə ticarət üstünlük təşkil edir. Tovuz, Ağstafa, Şəmkir rayonları və Gəncə şəhərinin kəndli sahibkarları əsasən bitkiçilik məhsullarının istehsalına daha çox diqqət yönəldirlər.Qazax, Daşkəsən, Goranboy, Göygöl, Samux, Gədəbəy rayonlarının təsərrüfatlarında heyvandarlığın üstün inkişafı üçün əlverişli şərait mövcuddur. Bütün bunlara baxmayaraq, tədqiq edilən ərazilərin hamısında xidmət sahələri üzrə sahibkarlığın inkişaf səviyyəsi qeyri-qənaətbəxşdir və 0,6-2,0 faiz arasında xüsusi çəkiyə malikdirlər. Ümumi vəziyyətdən asılı olaraq, tədqiq edilən ərazilərdə kiçik və orta sahibkarlığın da inkişaf səviyyəsi çox aşağıdır. Məlumatlarının təhlili göstərir ki, ümumiyyətlə ölkədə, eləcə də, tədqiq olunan regionda 2008-ci ildən sonrakı dövrdə sahibkarların sayı qeyri-stabil artır və ümumən azalma meylinə malikdir (4,2 faiz azlma müşahidə olunmuşdur.) Onların ümumi sayının 12,7-12,3 faizi Gəncə-Qazax iqtisadi rayonun payına düşməklə, dinamik azalmışdır (dövr ərzində azalma sürəti 13,6%-lə səciyyələndirilir). Göygöl (10,2 % artım), Samux (3,4% artım) rayonları və Naftalan (4,1% artım), istisna edilməklə, bütün inzibati ərazilər üzrə kiçik və orta sahibkarlıq subyektlərinin sayı xeyli azalmışdır. Belə halı da, fikrimizcə, əlverişli mühitin mövcud olmaması ilə əlaqələndirmək olar.

**Cədvəl 1. Gəncə-Qazax iqtisadi rayonu üzrə əhalinin hər 1000 nəfərinə düşən kiçik sahibkarlıq subyektlərinin sayı**

| | 2008 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan cəmi | 23 | 15 | 15 | 15 | 18 | 20 | 20 |
| Gəncə-Qazax | 22 | 14 | 13 | 14 | 17 | 18 | 18 |
| Ağstafa | 24 | 16 | 16 | 16 | 18 | 18 | 18 |
| Daşkəsən | 19 | 13 | 13 | 14 | 15 | 16 | 16 |
| Gədəbəy | 14 | 10 | 10 | 11 | 12 | 12 | 13 |
| Gəncə | 28 | 16 | 14 | 14 | 19 | 21 | 21 |
| Goranboy | 19 | 13 | 12 | 12 | 15 | 15 | 16 |
| Göygöl | 23 | 17 | 18 | 18 | 21 | 22 | 23 |
| Qazax | 22 | 14 | 14 | 14 | 18 | 19 | 19 |
| Samux | 18 | 14 | 13 | 13 | 15 | 17 | 17 |
| Şəmkir | 21 | 13 | 13 | 13 | 15 | 16 | 15 |
| Tovuz | 20 | 13 | 12 | 13 | 17 | 17 | 18 |
| Naftalan | 41 | 21 | 24 | 26 | 29 | 33 | 33 |

Mənbə: https://www.stat.gov.az/ və müəllifin hesablamaları

Əhalinin hər 1000 nəfəri hesabı ilə kiçik və orta sahibkarlığın inkişaf xüsusiyyətlərini aşağıdakı kimi səciyyələndirmək olar: həm ölkədə və həm də Gəncə-Qazax iqtisadi rayonun ərazilərində kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2008-ci ildən sonra xeyli azalmağa başlamışdır, yalnız 2013-cü ildən azalma meyli artımla əvəz olunmuşdur, lakin hələ də 2008-ci ilin səviyyəsinə çatmaq mümkün olmamışdır. Gəncə və Naftalan şəhərləri, Göygöl rayonunda əhalinin hər 1000 nəfərinə düşən kiçik və orta sahibkarlıq subyektlərinin sayı, ölkə üzrə orta səviyyədən də yüksəkdir. Qazax, Ağstafa və Tovuz rayonlarında da, digər rayonlar ilə müqayisədə, nisbətən yüksək səviyyə mövcuddur.

Əgər 2008-2015-ci illərdə kiçik və orta sahibkarlıq subyektlərinin yerinə yetirdikləri işlərin həcmi ölkə üzrə 252% armışdırsa, bu göstərici Gəncə-Qazax iqtisadi rayon üzrə 280 faizə bərabər olmuş və bəzi rayonlarda ondan xeyli üstün arım sürəti müşahidə olunmuşdur: Göranboy – 429%, Gədəbəy – 427%, Naftalan – 352%, Gəncə -374%, digər rayonlarda isə nisbətən aşağı səviyyədə artım müşahidə olunmuşdur. Bu da yerlərdə kiçik və orta sahibkarlığın inkişafına bəslənilən rəğbətdən irəli gəlir, amma müəyyən obyektiv və subyektiv səbəblərdən onun arzu edilən səviyyədə inkişaf etdirilməsi, hələlik mümkün olmur. Bu səbəblərdən

ən mühümü maliyyə imkanlarının zəifliyi ilə səciyyələndirilir. Bu da bir çox amillərin bilavasitə və dolayı təsirlərindən asılı olur.

**Cədvəl 2. Gəncə-Qazax iqtisadi rayonu üzrə kiçik sahibkarlıq subyektlərinin yerinə yetirdikləri işlərin həcmi**

| | Mütləq kəmiyyət, milyon manat | | | Bir təsərrüfata düşür, min manat | | | 2015/ 2008, faiz |
|---|---|---|---|---|---|---|---|
| | 2008 | 2010 | 2015 | 2008 | 2010 | 2015 | |
| Azərbaycan cəmi | 2 475,7 | 3 835,5 | 5 986,3 | 12,1 | 28,0 | 30,5 | 252,4 |
| Gəncə-Qazax | 172,6 | 219,5 | 417,2 | 6,7 | 13,1 | 18,6 | 279,6 |
| Ağstafa | 13,5 | 15,4 | 23,4 | 7,1 | 12,2 | 15,3 | 216,2 |
| Daşkəsən | 4,4 | 5,5 | 8,6 | 7,1 | 12,9 | 15,4 | 215,7 |
| Gədəbəy | 6,0 | 6,7 | 25,1 | 4,6 | 7,3 | 19,8 | 426,9 |
| Goranboy | 7,6 | 9,2 | 28,0 | 4,1 | 7,4 | 17,8 | 429,3 |
| Göygöl | 10,9 | 15,0 | 22,4 | 8,5 | 14,9 | 15,9 | 186,5 |
| Qazax | 11,8 | 17,8 | 27,7 | 6,1 | 13,8 | 15,6 | 257,3 |
| Samux | 7,5 | 5,8 | 15,1 | 8,0 | 7,9 | 15,6 | 186,5 |
| Şəmkir | 27,2 | 33,7 | 59,2 | 7,0 | 13,0 | 19,4 | 257,9 |
| Tovuz | 32,6 | 48,0 | 56,0 | 10,2 | 23,4 | 18,1 | 178,1 |
| Gəncə | 49,9 | 59,9 | 147,4 | 5,7 | 11,7 | 21,4 | 374,0 |
| Naftalan | 1,2 | 2,5 | 4,4 | 3,8 | 14,3 | 13,4 | 352,2 |

Mənbə: https://www.stat.gov.az/ və müəllifin hesablamaları

Ölkənin və tədqiq olunan bölgənin kiçik və orta sahibkarlıq təbəqəsi əsasən təsərrüfatların öz üzvlərinin əməyi əsasında fəaliyyət göstərir. Muzdlu işçilərdən az istifadə edilir. Belə ki, məsələn, Gəncə-Qazax iqtisadi rayonun üzrə fəaliyyət göstərən hər 100 kiçik və orta sahibkarlardan 2008-2015-ci illərdə 62-66-sı, yalnız özüməşğulluq statuslu ailə üzvlərinin əməyindən istifadə etmişlər, onların yalnız 34-38-də, orta hesabla, 1 nəfər muzdlu işçilər cəlb edilmişdir.

Tədqiqat nəticələrindən məlumdur ki, Gəncə-Qazax iqtisadi rayonun kiçik və orta sahibkarlarının əksəriyyəti (94%-dən çoxu) fiziki şəxs statuslu fərdi sahibkarlardan ibarətdir. Onların illik dövriyyəsi son üç ildə 14-18 min manat arasında dəyişmişdir və 30 faizə qədər artım əldə edilmişdir. Fiziki şəxs statuslu fərdi sahibkarların yalnız 0,3 faizə qədəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığa aid edilir və onların hər birinin orta illik məhsul istehsalının həcmi 20-32 min manat həcmində dəyişmişdir (64,4% artım müşahidə edilir). Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların xüsusi çəkisi 2,1-1,6% arasında dəyişməklə, azalma meyli formalaşmışdır, onların hər birinin illik dövriyyəsi isə 19-21 min manat arasında dəyişmişdir (15% artım əldə olunmuşdur).

Fikrimizcə, digər fəaliyyət sahələrindən fərqli olaraq, kənd təsərrüfatında istehsalçıların illik dövriyyəsinin həcmini şərtləndirən əsas amillərdən biri mülkiyyət və istifadəsində mövcud olan yararlı torpaq ehtiyatları ilə səciyyələndirilir. Məhz bu amildən istifadə etmək nəticəsində məhsul istehsal edilir, satılır, istifadə edilir, müqabilində gəlir, mənfəət əldə edilir və səmərəlilik göstəriciləri formalaşdırılır. Belə yanaşmanı kəndli sahibkarların kiçik, orta və iri sahibkarlıq kateqoriyalarına ayırmaq üçün ən optimal əlamət hesab edirik. Ona görə də, 50 hektara kimi kənd təsərrüfatına yararlı sahələri olan istehsalçıları kiçik, 50-100 ha sahəsi olanları orta və 100 ha-dan çox yararlı sahələri olan təsərrüfatları iri sahibkarlıq subyektləri hesab etməyi məqsədəuyğun sayırıq. Buradan da deməк olur ki, Gəncə-Qazax iqtisadi rayonunda kiçik sahibkarlıq subyektləri 220 826 vahidə (99,81% xüsusi çəkiyə malikdir) bərabərdir, mövcud torpaq sahələrinin 62,9%-ni onlar istifadə edirlər və hər birinin, orta hesabla, 0,91 ha kənd təsərrüfatına yararlı torpaq sahələri mövcuddur; orta sahibkarların sayı 125 (yaxud 0,06%) olmaqla, 2,5% kənd təsərrüfatına yararlı torpaq sahələrinə sahibdirlər, orta hesabla hər birinə 63,45 ha sahə düşür; iri sahibkarlıq subyektlərinin sayı 294 vahidə (0,13%-ə) bərabərdir, mövcud torpaq ehtiyatlarının 34,7%-i onların mülkiyyətinə və istifadəsinə daxildir, hər birinin torpaq ehtiyatları 376 hektardan çoxdur. Regionun kənd təsərrüfatı istehsalçılarının 2671-nin (1,2%-nin) torpaq ehtiyatları mövcud deyildir, onlar əsasən heyvandarlıqla məşğul olur və icarəyə götürülmüş sahələrdən istifadə edirlər.

Tədqiqat əsasında məlum olmuşdur ki, Gəncə-Qazax iqtisadi rayonun ərazisində 223 min 916 kənd təsərrüfatı istehsalçıları mövcuddur və bu da ölkə üzrə kəndli sahibkarların 16,6%-ni təşkil edir. Onların 99,91%-i fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarından ibarətdirlər. Region üzrə bütün kəndli sahibkarların sərəncamında 319, 4 min hektar (ölkə üzrə 14,0% təşkil edir) möv-cuddur. Bu sahələrin 3,11 faizi fərdi sahibkarlara, 82,49%-i ailə kəndli təsərrüfatlara və 2,61%-i isə ev təsərrüfatlarına məxsusdur. Bu sahələrdə çoxlu heyvandarlıq və bitkiçilik məhsulları istehsal edilir. Çox az hissəsi fərdi sahibkarlar hesab edilsə də, ailə kəndli təsərrüfatları "Ailə kəndli təsərrüfatları haqqında" Azərbaycan Respublikasının qanununun 1-ci maddəsinə görə sahibkar hesab edilmirlər, halbuki onların məhsullarının əsas hissəsi əmtəəlik hesab edilir, istehlak bazarında satılır və mənfəət əldə edilir, 2,61 yararlı torpaq sahələrində özünün tələbatının ödənilməsi və artıq hissəsini istehlak bazarına çıxarıb satan ev təsərrüfatının isə sahibkarlığa münasibəti nə elmi tədqiqatlarda və nə də qanunvericilikdə müəyyən edilməmişdir. Sonuncu kateqoriyaya mənsub olan təsərrüfatlar da öz tələbatının ödənilməsindən xeyir əldə edir və izafi məhsulun satışından da gəlir götürür. Hesab edirik

ki, onların hər üçü sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Ona görə də qanunvericiliyin təkmilləşdirilməsini məqsədəuyğun hesab edirik.

İqtisadi rayonun kəndli sahibkarlarının coğrafi xüsusiyyətlərinin tədqiqi nəticəsində məlum olmuşdur ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə regionun həm şəhərlərində və həm də kənd rayonlarında xeyli sayda sahibkar məşğul olur. Ailə kəndli təsərrüfatlarının xüsusi çəkisi bu regionda daha yüksəkdir (74,3%), ölkə üzrə orta hesabla 64,8%-lə müqayisədə. Regionun bəzi rayonlarında bu göstərici 95%-dən yuxarıdır. Region üzrə ev təsərrüfatı ölkə ilə müqayisədə nisbətən aşağı səviyyədə olsa da, bəzi şəhər və rayonlarda xeyli yüksək çəkiyə malikdir. Fərdi sahibkarlıq və digər təsərrüfat kateqoriyaları üzrə də vəziyyət eynən belədir. Belə bir vəziyyət deməyə əsas verir ki, rəsmi dairələrdə kəndli sahibkarların fəaliyyətinin iqtisadi-statistik qiymətləndirilməsinə düzgün yanaşılmır və təkmilləşdirilməsinə zərurət yaranmışdır.

Tədqiq edilən iqtisadi rayonun kəndli sahibkarlarının fəaliyyət xüsusiyyətlərini, coğrafi aspektdə, mövcud torpaq ehtiyatları və ondan istifadə olunmasının faktiki vəziyyəti ilə səciyyələndirmək olar. Belə ki, ümumən regionda əkin yerlərinin xüsusi çəkisi 56,3%-lə, ölkə üzrə 67,2% ilə müqayisədə xeyli aşağıdırsa, örüş və otlaq sahələrinin mövcudluğuna görə üstünlük təşkil edir. Ayrı-ayrı inzibati rayonlar üzrə bu fərqlər xeyli yüksəkdir. Bu regionda həm də kəndli sahibkarların bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı üçün faktiki istifadə etdiyi kənd təsərrüfatına yararlı əkin sahələri, onların mülkiyyətində olan sahələrdən xeyli (23,5%) çoxdur. Ölkə üzrə bu göstərici 11% təşkil edir. Regionun təsərrüfatları istifadə etdikləri yararlı sahələrin 45%-ni pul və məhsul müqabilində icarəyə, 2,8%-ni digər formada istifadə etməyə götürmüşlər. Eyni zamanda, bəzi təsərrüfatlar mülkiyyətində olan yararlı torpaq sahələrini digər sahibkarlara icarəyə və istifadəyə verirlər.

Rəsmi statistik məlumatların təhlili deməyə əsas verir ki, Gəncə-Qazax iqtisadi rayonun təsərrüfatlarının mövcud torpaq ehtiyatlarına görə Ağstafa, Şəmkir, Gədəbəy, Samux, Goranboy rayonlarının kəndli sahibkarlarının əkinçiliklə məşğul olmaq imkanları genişdir. Gəncə şəhərində meyvəçiliyin inkişaf etdirilməsi imkanları yüksəkdir. Tovuz, Daşkəsən, Gədəbəy,Göygöl rayonlarında heyvandarlığın üstün inkişafı üçün təbii-iqlim şəraiti əlverişlidir. Qazax rayonunun təsərrüfatlarında həm bitkiçiliyin və həm də heyvandarlığın inkişaf etdirilməsi üçün mövcud torpaq ehtiyatları əlverişlidir. Müvafiq istehsal sahələrinin təşkili və inkişaf etdirilməsi zamanı bu kimi xüsusiyyətlərin nəzərə alınması məqsədəuyğun sayıla bilər.

Məlumatların təhlilindən məlum olur ki, ümumiyyətlə ölkə üzrə və o cümlədən, Gəncə-Qazax iqtisadi rayonlarının kənd təsərrüfatı istehsalçıları əkinçiliyin təşkili və inkişaf etdirilməsində mütərəqqi texnologiyadan istifadə olunmasına lazımınca əhəmiyyət vermirlər. Belə ki, məsələn, əkinçiliklə məşğul olan təsərrüfatların Azərbaycan üzrə 32,1%-i və Gəncə-Qazax iqtisadi rayonunda 19,2%-i növbəli əkin sistemindən istifadə edirlər. Təsərrüfatların, müvafiq olaraq, 16,0%-i və 17,1%-i əkin sahələrinə yalnız mineral gübrələrin verdiyini bildirirlər, 18,0%-i və 18,5%-i yalnız üzvi gübrələrdən istifadə edirlər, 13,5%-i və 11,5%-i mineral və üzvi gübrələrdən istifadə edirlər, heç bir gübrədən istifadə etməyən əkinçilərin xüsusi çəkisi isə 52,5% və 52,8%-lə səciyyələndirilir.

Təbiidir ki, bu kimi münasibət, əvvəla, məhsuldarlıq və məhsulun həcmini artırmağa imkan vermir, ikincisi, təsərrüfatların pul gəlirlərini artırmaq və maliyyə imkanlarını möhkəmləndirmək mümkün olmur, üçüncüsü, məhsulların keyfiyyətini yüksəltmək, istehlak bazarının tələbatını ödəməkdə çətinliklər yaranmasına səbəb olur, dördüncüsü, ehtiyatlardan, torpaq, əmək və kapitaldan səmərəli istifadə etmək prinsipləri pozulur, beşinci rəqabət qabiliyyəti formalaşdırmaq və onu möhkəmləndirmək mümkün olmur və s.

Aqrokimyəvi tədbirlərin qeyri-qənaətbəxşliyinin əsas səbəblərinə, aparılmış müşahidələr üzrə, daxil edilir: növbəli əkin sistemi və gübrələrdən istifadəyə dair biliyin zəyifliyi, onların əldə edilməsindəki çətinliklər, istifadə olunma qaydaları barədə təcrübənin olmaması, maliyyə imkanlarının olmaması və s. Təəssüflər olsun ki, ölkəmizdə dəqiq və diferensial normalardan istifadə edilmir. Belə ki, Azərbaycan üzrə cəmi 23,0% əkin sahələrinə mineral gübrələr verilir və orta hesabla, hər hektar əkin sahələrinə 133 kq azot, 12 kq fosfor, 5 kq kalium verilir, Gəncə-Qazax iqtisadi rayonunun təsərrüfatlarında mineral gübrələr verilən əkinlərin xüsusi çəkisi nisbətən yüksək (28,2%) olsa da, bir hektar əkin sahələrinə verilən gübrələrin miqdarı xeyli aşağıdır. Ayrı-ayrı rayonlarda mineral və üzvi gübrələrdən istifadənin vəziyyəti, qeyri-qənaətbəxş olmaqla yanaşı, xeyli fərqlənir.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, müasir texnologiyalara uyğun əkinçiliyin təşkili, əkin sahələrindən səmərəli istifadə olunması, məhsuldarlıq və səmərəlilik göstəricilərinin yüksəldilməsi və digər nailiyyətlər ilk növbədə peşəkar kardrların mövcud olması, əkin sahələrinə, torpağın keyfiyyətindən asılı olaraq, mineral gübrələrin verilməsinə dair norma və normativlərin hazırlanması və təsərrüfatlara tövsiyə edilməsi, müxtəlif xidmət sahələrinin fəaliyyət göstərməsi və s. məsələlərin həllindən çox asılı olur.

Əkinçiliklə məşğul olan təsərrüfatların olduqca az hissəsi, Azərbaycanda 2,4% və Gəncə-Qazax iqtisadi rayonunda 4,1% təsərrüfatlarda əkinlərin ziyanvericilərdən və alaq otlarından mübarizə tədbirləri

aparmışlar. Bu da məhsuldarlığa, maliyyə ehtiyatlarının artırılmasına, səmərəlilik göstəricilərinin aşağı salınmasına bilavasitə təsir göstərən amillərdən hesab edilir.

Müşahidə və təhlillər deməyə əsas verir ki, regionun kənd təsərrüfatı istehsalı ilə məşğul olan kiçik və orta sahibkarlığının arzu olunan səviyyədə inkişaf etdirilməsi üçün, əkinlərə mineral və üzvi gübrələrin aqrotexniki tələblərə uyğun verilməsi, ixtisaslaşdırılmış sahibkarlıq subyektlərinin yaradılması, onların zəruri texnika və avadanlıqlarla təchiz edilməsi, zəruri normativlərin, təlimatların hazırlanması çox əhəmiyyətli ola bilər. Əvvəla, kənd təsərrüfatını müasir texnologiya və tələblərə uyğun inkişaf etdirmək olar. Sonra da, məhsuldarlıq və səmərəlilik göstəricilərinə nail olunmaq mümkündür. Nəhayət, kiçik və orta sahibkarların maliyyə imkanlarını möhkəmləndirmək, istehlak bazarının tələbatını ödəmək reallığa çevrilə bilər.

Tədqiq olunan bölgənin əkinçiliyinin əsas xarakterik xüsusiyyətlərindən biri suvarma əkinçiliyi ilə səciyyələndirilir. Belə ki, təsərrüfatların sərəncamında olan əkin sahələrinin 51%-nə qədəri suvarılan, 49%-i dəmyə ərazilərindən ibarətdir. Bəzi inzibati rayonlarda suvarılan əkinçiliyin xüsusi çəkisi 82-100%-ə çatır. Su ehtiyatlarının mövcud olmasından asılı olaraq il ərzində, orta hesabla 3 dəfə, bəzi rayonlarda 2 dəfə, Tovuz rayonunda isə 4 dəfə suvarma aparılır.

Məlumatların təhlili göstərir ki, həm ölkənin və həm də Gəncə-Qazax iqtisadi rayonun kənd təsərrüfatı istehsalçıları suvarma əkinçiliyində demək olar ki, suvarmanı suyun tamamilə öz axını ilə axıtmaq üsulunda həyata keçirirlər, yəni köhnə qaydada aparırlar. Bəzi rayonlarda olduqca az sayda təsərrüfatlar mütərəqqi suvarma üsulları tətbiq edirlər. Belə ki, Qazax, Ağstafa, Gədəbəy, Göygöl, Goranboy rayonları təsərrüfatların hamısı suvarma əkinçilikdə suvarma işlərini tamamilə köhnə üsulla həyata keşirirlər. Tovuz, Şəmkir və Samux rayonlarında 0,05-0,1% təsərrüfatlarda əkinlərin suvarılması üçün çiləmə üsulundan, Tovuzda 0,02% təsərrüfatlarda dispersiya üsulu ilə suvarma aparılır. Tovuz və Şəmkir rayonunda yeraltı sularla suvarmaya üstünlük verilir, 0,02-0,03% təsərrüfatlarda isə damcı üsulundan istifadə edirlər.

Suvarmanın axın üsulu ilə aparılmasında su ehtiyatlarında səmərəli istifadə olunması təmin olunmursa, su çatışmazlığı yaradılaraq, digər təsərrüfatlar üçün su qıtlığı yaradılır, suya çəkilən xərclər artırılırsa, yeni mütərəqqi üsullarda bunun tamamilə əks nəticələri mümkün olur: su ehtiyatlarında qənaətlə istifadə edilir, hamı üçün sudan istifadəyə şərait yaradılır, suya çəkilən xərclər azaldılır, aqrotexniki tələblərə uyğun suvarma aparmaq mümkün olur, məhsuldarlıq göstəriciləri artırıla bilir və s. Yeni üsulların tətbiqinin bir mənfi cəhəti vardır ki, çiləyici qurğu və alətlərin yaradılmasına əlavə kapital, vəsait qoyuluşu tələb olunur. Kiçik və orta sahibkarlar üçün çətinlik yaratdığına görə, suvarma xidmətləri göstərən sahibkarların yaradılması, iqtisadi metodlar üzrə inteqrasiya və qarşılıqlı əlaqələrin qurulmasını əhəmiyyətli saymaq olar.

Məlumatların təhlilindən məlum olur ki, əkinçiliklə məşğul olan təsərrüftların 27,1%-i dən və yaşıl yem üçün payızlıq və yazlıq əkinləri aparırlar, onların hər biri, orta hesabla, 1,2 ha sahədə bu məhsulları becərirlər və yaxud sərəncamlarında olan əkin sahələrinin 41,8%-dən bu məqsədlər üçün istifadə olunur. Müvafiq göstəricilər təşkil edir: şəkər çuğunduru əkinləri üzrə 0,1%, 2,1 ha və 0,3%, dən üçün günəbaxan əkinləri – 1,5%, 1,7 ha və 3,2%, kartof, tərəvəz və bostan bitkiləri əkini – 55,2%, 0,3 ha və 22,5%, yem bitkiləri əkini – 22,1%, 1,0 ha və 26,6%, ümumiyyətlə əkiçiliklə məşğul olanlar – 77,9%, 1,03 ha və 99,9%.

Göstərilənlərlə yanaşı, tədqiq olunan regionun təsərrüfatlarının 3,8%-də bağlarda cərgəarası əkinlər aparılır, 3,0%-də örtülü torpaqlara pomidor, xiyar, gül və s. əkinlər həyata keçirilir, 1,2%-də istilikxana şəraitində pomidor, xiyar və s. məhsullar yetişdirilir, 5,5%-də isə giləmeyvə əkməklə məşğul olurlar.

Regionun təsərrüfatlarının məşğuliyyəti və gəlirlərinin formalaşmasında meyvəçilik də mühüm əhəmiyyət kəsb edir. Belə ki, kənd təsərrüfatı istehsalçılarının 81,8%-i meyvə bağlarına malikdirlər, onların hər birinin, orta hesabla, 0,1 ha bağ sahələri mövcuddur və çoxillik əkmələrinin 95,7%-ni meyvə bağları təşkil edir. Bununla yanaşı, 3,3% təsərrüf üzüm istehsalı ilə məşğul olurlar, onların 2,8%-i süfrə üzümü istehsal edir, 5,1% təsərrüfatda talvar üzümü istehsal olunur.

Rəsmi statistik məlumatların təhlillərdən məlum olur ki, əkinçilik və meyvəçiliklə məşğul olan təsərrüfatların böyük əksəriyyəti kiçik və orta sahibkarlıq subyektlərindən ibarətdir, onların maliyyə imkanları, yəni gəlir və mənfəəti məhz müvafiq məhsulların istehsalı və satışından bilavasitə asılıdır. Eyni zamanda, onlar istehlak bazarının müvafiq məhsullarla təmin edən əsas mənbə sayılır. Deməli, onların səmərəli fəaliyyəti üçün ixtisaslaşdırılmış xidmət sahələrinin, yəni kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması, istehsalçılar ilə iqtisadi metodlar əsasında qarşılıqlı əlaqələrin qurulması əhəmiyyətli sayılır. Belə ixtisaslaşdırılmış xidmət sahələri ola bilər: müvafiq məhsulların tədarükü və satışı üzrə; kənd təsərrüfatı istehsalçılarına texnoloji xidmətlərin: aqronom, aqrokimyəvi, şumlama, becərmə, məhsul yığımı və daşınması üzrə; kənd təsərrüfatı istehsalçılarına təchizat xidmətləri üzrə; kadrların hazırlığı və peşə yönümünü artırmaq; sair zəruri xidmətlərin göstərilməsini təşkil etmək həm kənd təsərrüfatını məqsədyönlü inkişaf etdirmə və həm də

kəndin sosial-iqtisadi inkişafını təmin edib hədəflərə nail olmaqda çox əhəmiyyətli ola bilər.

## Nəticə

Ölkədə sahibkarlıq fəaliyyətinə yanaşmanın nəzəri əsasları qeyri-mükəmməldir və innovasiyaya ehtiyac yaranmışdır; sahibkarlığın fəaliyyətinə nəzəri yanaşmaların qeyri-mükəmməlliyi onların təsərrüfat fəaliyyətinin iqtisadi-statistik qiymətləndirilməsinə mənfi təsir göstərir və təhrifetmələrlə nəticələnmənin əsas səbəbinə çevrilir; Gəncə-Qazax iqtisadi rayonda sahibkarlığın pərakəndə ticarət sahələri daha geniş inkişaf etmişdir. Burada kənd təsərrüfatı sahələrinin: əkinçilik və heyvandarlığın inkişaf etdirilməsi üstünlüyə malikdir, hər hektar yararlı sahələrdən daha çox məhsul əldə edilir. Amma sənaye sahələri və müxtəlif növ xidmətlərin göstərilməsi ilə məşğul olan sahibkarlıq növlərinin inkişafı çox zəifdir. Regionda suvarma əkinçiliyi üstünlük təşkil edir. Müxtəlif növ meyvəçilik sahələrinin inkişaf etdirilməsi üçün əlverişli təbii-iqlim şəraiti mövcuddur; iqtisadi rayonun təbii-iqlim şəraiti heyvandarlıq məhsulları istehsalı üçün daha çox əlverişli sayılır; təsərrüfatlarının əsas gəlir mənbələri maldarlır, qoyunçuluq, quşçuluq və arıçılıq məhsullarının istehsalı ilə səciyyələndirilir; təsərrüfatların böyük əksəriyyəti kiçik sahibkarlardan, nisbətən də orta sahibkarlardan ibarətdir; heyvandarlıq sahələrini məqsədyönlü inkişaf etdirmək üçün ixtisaslaşdırılmış kiçik sahibkarlıq subyektlərinin xidmətləri: zootexnik, zoobaytar xidmətləri, xəstəliklə mübarizə vasitələri ilə vaxtında və keyfiyyətlə təmin etmək; məhsulların tədarükü və satışını təşkil etmək və s. xidmətlər üzrə kiçik sahibkarlıq subyektlər yaradılması əhəmiyyətli sayılır, nəticədə heyvandarlıqla məşğul olan təsərrüfatların maliyyə imkanları möhkəmlənər və geniş təkrar istehsalın təmin olunması reallığa çevrilə bilər; iqtisadi rayon ölkənin ixracat potensialını genişləndirmək və möhkəmləndirmək imkanlarına malikdir. İstehsal və emal sahələrinin təşkilati-idarəetmə məsələlərinin təkmilləşdirilməsi yolu ilə, meyvə və tərəvəzlə yanaşı, heyvandarlıq məhsullarının - ət, süd məhsulları və bal ixracını təşkil etmək mümkündür.

## ƏDƏBİYYAT

1.2015-ci ildə kənd təsərrüfatı siyahıyaalması (məcmu məlumatlar), Dövlət Statistika Komitəsi, Bakı, 2016, 228 səh.
2.Azərbaycan rəqəmlərdə - 2017, Dövlət Statistika Komitəsinin məcmuəsi. https://www.stat.gov.az -Dövlət Statistika Komitəsinin saytı.

**Характерные особенности развития аграрного предпринимательства в экономических районах Гянджа – Газах**

**С.Т.Ахмедов**

В статье исследованы характерные черты сельскохозяйственный производителей экономических районов Гянджа – Газах, изучены отраслевые особенности. Показаны усилия по проведению классификации по объему производства на основании земельных ресурсов и выдвинуты целесообразные предложения. Здесь также внимание направлено на состояние использования способов интенсивного земледелия субъектов предпринимательства аграрной области. Рассмотрены возможности предложения и местным и внешним рынкам продукций, производимых субъектами аграрного предпринимательства региона. Исследуются пути достижения целей более лучшего развития субъектов малого и среднего предпринимательства аграрного сектора.

***Ключевые слова:*** *земельные резервы, производительность, земельные участки пригодные сельскому хозяйству, сельский предприниматель, интенсивное земледелие.*

**Characterıstıc features of development of agrıcultural entrepreneurshıp ın Ganja-Gazakh economıc regıon**

**S.T.Akhmadov**

The article explores the features of agricultural producers of the Ganja-Gazakh economic region, examines the field characteristics, tries to conduct the classification according to the production volume based on available land resources, and suggestions are made. It also focuses on the use of intensive farming methods of agrarian sector's entrepreneurship. The ways in which the agri-entrepreneurial subjects are able to offer their products to both local and foreign markets are reviewed. The ways to achieve the goals of better development of small and medium-sized businesses in the agrarian sector are investigated.

***Key words:*** *Land resources, productivity, agricultural land, rural entrepreneur, intensive farming.*